**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№348/1** **03 oktyabr 2022-ci il**

**"Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri" barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2022-ci il 25 fevral tarixli 1/12 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair "Tədbirlər Planı"nın 9-cu bəndinin icrasını təmin etmək, auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, xidmət bazarında haqsız rəqabətə yol verilməməsi və sifarişçi təsərrüfat subyektlərində auditor xidmətlərinin dəyəri barədə obyektiv fikrin formalaşdırılması məqsədilə, 2022-ci il 26 may tarixində peşə fəaliyyətinə dair aparılmış sorğunun nəticələri üzrə Palatanın üzvləri tərəfindən verilən və 2022-ci il 09 avqust tarixində keçirilmiş dəyirmi masada qeyd edilən təkliflər və xarici təcrübə nəzərə alınmaqla işçi qrupu (rəhbəri - S.Gülməmmədov) tərəfindən yenidən işlənib hazırlanmış "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri" barədə layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri təsdiq edilsin (əlavə olunur)
2. Minimum hədlərin tətbiqi auditor təşkilatları və sərbəst auditorlar (bundan sonra Auditorlar Palatasının üzvləri adlandırılacaq) üçün 2022-ci il 01 noyabr tarixindən məcburi hesab edilsin.
3. Auditorlar Palatasının üzvlərinə tapşırılsın ki, bu qərarın 1-ci və 2-ci bəndlərinin icrasına ciddi riayət etsinlər.
4. Auditorlar Palatasının üzvlərinin nəzərlərinə çatdırılsın ki, auditor xidmətlərinin dəyərinin minimum hədlərinə riayət edilməməsi haqsız rəqabətə şərait yaradan amil kimi qiymətləndiriləcək və onlar barəsində intizam tədbirləri görüləcəkdir.
5. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, iki həftə müddətində bu qərarın və "Azərbaycan Respublikasının ərazisində auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin mətnlərinin Palatanın üzvlərinə göndərilməsi təmin edilsin.
6. Auditorlar Palatasının icraçı direktoruna (S.Gülməmmədov), Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov), Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə dair Palatanın üzvləri üçün 2022-ci ilin oktyabr ayında seminarın keçirilməsi təmin edilsin.

7. Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (V.Rəhimov) və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin monitorinqi zamanı bu qərarın icrasına xüsusi diqqət yetirilsin.

8. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, Palatanın üzvləri tərəfindən "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə riayət edilməsinə operativ nəzarəti təşkil etmək məqsədilə auditorun şəxsi kabinetində müvafiq dəyişikliklərin aparılması təmin edilsin.

9. 2022-ci il 01 noyabr tarixindən "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri" barədə Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

10. Bu qərarın və "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin mətnlərinin Palatanın internet səhifəsində və auditorun şəxsi kabinetində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**